© *“Metafizika” Journal* **p-ISSN 2616-6879**
*Vol 6, issue 1, serial 21, 2023. pp.69-80* **e-ISSN 2617-751X**

**UOT:** 327.
**KBT:** 63.3. -6
**MJ №** 154

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi portret cizgiləri

**Ağalar Abbasbəyli***

**Abstrakt.** Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi portret cizgilərinin təqdim edilməsi məqsədilə dahi şəxsiyyətin Azərbaycan tarixindəki rolu və yeri tədqiq edilib.

Görkəmli xadimin suveren Azərbaycanın yaranması və inkişafındakı əzəmətli xidməti, onun siyasi varisi, cənab İlham Əliyevin Qarabağın otuz illik erməni işğalından azad edilməsindəki rolu konkret faktlara əsaslanılaraq təhlil edilib.

Nəticədə Azərbaycan Respublikası Prezidenti və Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına nəinki Şuşa və Qarabağı, həm də bütün azərbaycanlılara qalib Azərbaycanı geri aldığı xüsusi vurğulanıb.

**Açar sözlər:** Heydər Əliyev, İlham Əliyev, lider, siyasət, tarix

## 1.Giriş

Tarixin yaddaşında təzadları ilə qalacaq əsrimizdə dahilərin qiymətləndirilməsində hansısa dəqiq meyar tapmaq çətindir. Hər şeydən əvvəl xalqın taleyində dönüş anlarında öz sözünü deməyə qadir olan, onu arxasınca irəli aparmağı bacaran şəxs göz önündə gəlir. Çox qısa zaman kəsiyində hər şeyin alt-üst ola biləcəyini düşündükcə və dərk etdikcə xalqın məğlubiyyətlərdən və faciələrdən qurtulmasında rolu olan şəxsiyyətlərin varlığına ehtiyac daha kəskin olur.

Hər bir xalqın tarixində belə anlar olur və biz də istisna təşkil etmirik. Milli tariximizin ən çətin dövrlərindən biri 1993-cü ilin ortalarına təsadüf edir. Məhz həmin il Heydər Əliyevin adı ilə bağlıdır [Аббасбейли, А. (2002), s.8].

* Tarix elmləri doktoru, tarix və siyasi elmlər üzrə professor,
Bakı Dövlət Universiteti “Beynəlxalq münasibətlər” kafedrasının müdiri; Bakı, Azərbaycan
E-mail: magistr-2000@mail.ru
https://orcid.org/0000-0002-3286-7114

**Məqaləyə istinad:** Abbasbəyli, A. [2023]. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi portret cizgiləri. *“Metafizika” jurnalı, 6*(1), səh.69-80.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.12.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2023*
*Çapa qəbul edilmişdir: 13.03.2023*

Dünya təcrübəsi göstərir ki, tarixdə istənilən liderlərin yeri onun yaşadığı şəraitlə müəyyənləşir. Burada şəxsiyyətin rolu əvəzsizdir. XX əsr nəhənglərinin sonuncularından olan Heydər Əliyev nadir şəxsiyyətlərdən biridir. Bu o şəxsiyyətdir ki, dünyaya lider kimi gəlmiş, lazımi anda lazımi problemin mahiyyətini dərk etmək istedadı ilə seçilirdi. O, dahi şəxsiyyətlərə xas olan bütün xüsusiyyətlərə malikdir: istedad, siyasi duyğu, isti ürək, təmiz əl, açıq üz və insaniyyət.

Zaman və tarix siyasətçilər yetişdirir. Zaman Heydər Əliyevi yetişdirdi və o, taleyin hökmü ilə Azərbaycan xalqı üçün ən ağır bir dövrdə öz tarixi rolunu oynamalı oldu.

Keçmiş və indiki dövrün siyasi xadimlərindən fərqli olaraq Heydər Əliyev bütün problemlərdə ortodoksal mövqe tutmağa çalışırdı. Təbiətən istedadlı siyasətçi kimi Heydər Əliyev zamanın nəbzini tutmağı, lazımi xətti müəyyən etməyi bacarırdı. Bu keyfiyyətlər onda respublika rəhbərliyinə gəldiyi 70 - ci illərdən daha əvvəllər yaranmış və formalaşmışdı.

Heydər Əliyev özünün praktik fəaliyyətində həmişə həqiqətə və yenə də həqiqətə əsaslanmış, xalq kütləri ilə sıx əlaqədə olmuş, onların səsini və fikirlərini dinləmişdir, amma böyük siyasətə qayıdış yolu çox çətin və uzun, əzablı və işgəncəli olmuşdur.

**2.Ulu öndərin həyatından məqamlar**

Xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin uşaqlıq illəri qədim Naxçıvanda keçmişdir. Bu torpaq ən qədim dövrlərdən bu günlərədək saysız-hesabsız istedadlar yetirmişdir. Təkcə indiki yüzillikdə bu torpaq xalqımıza Mirzə Cəlil, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəmşid Naxçıvanski, Yusif Məmmədəliyev və onlarla nadir istedad bəxş etmişdir. Onların hamısı ən kiçik yaşlarından gözəl Naxçıvan torpağında həyat məktəbi keçmişdir. Bu mənada Naxçıvanın yetirməsi və Azərbaycan oğlu Heydər Əliyevin xalqın tarixində xüsusi yeri var [Anarxiyadan sabitliyə. s.27].

Böyük və mehriban ailə əsl istedadlar ocağı idi. Bu ailədən bir neçə nəfərin adını çəkmək kifayətdir. Əliyevlər ailəsi xalqımıza akademik Həsən Əliyev kimi böyük alim bəxş etmişdir. Məhz onun zəhməti sayəsində Azərbaycanın boş səhraları cənnətə çevrildi. Ailənin başqa bir üzvü, xalq rəssamı Hüseyn Əliyev ilk azərbaycanlılardandır ki, keçmiş Leninqradda bədii studiyanı bitirmişdir, özündən sonra çox qiymətli irs qoyub getmişdir. Bu əsərlər bir çox qalereyaları bəzəyir.

Azərbaycan çörəyi! Bu çörəkdə akademik Cəlal Əliyevin çoxillik zəhməti var. Alim bir çox xarici akademiyaların həqiqi üzvüdür.

Bu ailədə əmək həmişə şərəf işi hesab edilirdi və uşaqlıq illərindən ailədə hamı bir-birini dəstəkləyirdi. Amma çətinliklər ildən-ilə çoxalırdı. Bunu görən ata Əlirza kişi Heydərə işə girməyi təklif etdi ki, az da olsa ailənin

maddi vəziyyəti yaxşılaşsın. Amma Heydər uşaqlıqdan elmə can atırdı və ata bu istəyə maneə ola bilməzdi. Övladdan ayrılmaq çətin olsa da, ata xeyir-dua verib onu Bakıya təhsil almağa göndərdi.

Elmə və biliyə həvəs o qədər güclü idi ki, bütün çətinlikləri dəf edən Heydər orta məktəbi fərqlənmə ilə bitirib elmin uca zirvələrinə doğru irəliləməyə başladı. Bütün maneələri dəf edərək Azərbaycan Sənaye institutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə) daxil oldu. Az sonra isə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universitetini) bitirdi.

İllər keçdi. O, həyatın çətinliklərinə sinə gərərək dənizdə yelkənli gəmi kimi təhlükələri dəf edib irəli gedirdi. Gənc Heydər Əliyev tezliklə öz taleyini dövlət təhlükəsizliyi orqanlarına bağladı. Totalitarizmin dövran etdiyi o illərdə Heydər Əliyev Vətən naminə canından keçməyə hazır olan bir vətənpərvər kimi yetişirdi. Həm bu illərdə həm də sonralar onun bu sistemdə fəaliyyəti əziyyətli, çətin və çox şərəfli olmuşdur.

Heydər Əliyev çox böyük zəhmət bahasına sıravi əməkdaşdan general rütbəsinədək, şöbə rəisindən DTK rəisi vəzifəsinədək yüksəldi. Bu uzun yolda sevinc və kədər, yüksəliş və geriləmə, uğurlu dəqiqələr və kədərli anlar olsa da, o heç vaxt ruhdan düşmürdü. Bu çətin həyat yollarında hər bir döngə onu mətinləşdirirdi. Məhz bu illərdə xarakterində ədalət, həqiqət prinsipi kök saldı. Qeyd etmək lazımdır ki, DTK sədri vəzifəsinə uzun illər azərbaycanlılardan heç kimi yaxın qoymurdular və bu Heydər Əliyevin böyük uğuru olmuşdur.

Amma Heydər Əliyevin çoxcəhətli istedadı onun respublika rəhbərliyinə gəlməsindən sonra üzə çıxdı. 1969-cu ilin isti yay günlərində Heydər Əliyev Azərbaycana rəhbər seçildi. Bu, Azərbaycan tarixində çətin illər idi. Sanki həyat dayanmışdı. Məhz belə bir vaxtda respublikada idarəçilik sükanı Heydər Əliyevə həvalə edildi. Keçmiş İttifaqın əsas mətbu orqanı «Pravda» o vaxt belə bir qısa məlumat vermişdi: *«Azərbaycan KP MK-nın plenumu olmuş və Heydər Əliyev birinci katib seçilmişdir»* [Аббасбейли,A. Azərbaycan mənim ürəyimdir. s.9]. Çoxları bilmirdi ki, sonralar nələr olacaq. Təxminlər bir də onunla dərinləşirdi ki, yarım ildən artıq müddətdə Heydər Əliyevin şəkilləri heç bir yerdə verilmədi və o, televiziya ekranlarında görünmədi. Onun sadəcə olaraq, bu işlərə vaxtı qalmırdı. Yalnız Allaha və onun özünə məlumdur ki, respublikanın problemlərinin həlli yollarını müəyyənləşdirmək üçün nə qədər yuxusuz gecələr keçirmişdi. Amma ilk günlərdən xalq yeni rəhbərin iş metodunu hiss etməyə başladı. İstehsalatda, küçələrdə və meydanlarda əsl qayda-qanun yaranmağa başladı.

Heydər Əliyevin MK-nın avqust plenumunda etdiyi çıxış respublikadakı vəziyyəti xalqa aydınlaşdırdı. O, xalqa respublikanın ağır siyasi vəziyyətdə

olduğunu açıq şəkildə dedi. Müharibədən sonrakı tarix boyu ilk dəfə idi ki, ötən onilliklər ərzində insanlar sakit, monoton həyata alışmışdılar. Belə bir ağır zamanda Heydər Əliyev bütün məsuliyyəti öz üzərinə aldı və xalq onu dəstəklədi.

Heydər Əliyevin gücü onda idi ki, o, respublikadakı vəziyyəti düzgün qiymətləndirə bildi, bəşəriyyətin obyektiv inkişaf qanununa əsaslanaraq, milli xüsusiyyətləri nəzərə alaraq, cəmiyyətin sağlam qüvvələrinə əsaslanaraq qəti fəaliyyətə başladı. Götürülmüş siyasi xətt xalq arasından çıxmış liderə böyük ümidlər yaratdı.

Azərbaycan yavaş-yavaş, amma qətiyyətlə irəli getməyə başladı. On il ərzində Azərbaycan bütün sahələrdə 14 respublikanı geridə qoydu. Heydər Əliyevin qətiyyəti, siyasi istedadı nəticəsində keçmiş İttifaqın yaşadığı tənəzzüldən qaça bildik. Heydər Əliyevin idarəçiliyi dövründə Azərbaycan nəhəng inşaat - tikinti meydanına çevrildi. Məhz bu illərdə Azərbaycanda müasir sənayenin böyük tikintilərindən olan Məişət Kondisionerləri zavodu, «Azərelektroterm», onlarla zavod və fabrik tikildi. Bakıya su xətti çəkildi, bakılıların su ilə təminatında çətinlik qismən aradan qalxdı. Gəncədə, Naxçıvanda, Sumqayıtda, Şirvanda, Mingəçevirdə, Lənkəranda, Şəkidə, Xaçmazda 250-dən çox obyekt tikilib istifadəyə verildi. Kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər əldə edildi. Azərbaycan pambıqçılıqda, tütünçülükdə, çayçılıqda və s. sahələrdə öncül yerə çıxdı. Respublikaya şərəf gətirən onlarla əmək qəhrəmanı meydana gəldi. Dahi musiqiçilərimiz, rəssamlarımız, bəstəkarlarımız-Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tahir Salahov, Rəşid Behbudov, Müslüm Maqomayev dünya şöhrəti qazandılar [Аббасбейли, А. (2002). s.43]. İlk dəfə olaraq ildə 1000 nəfər oğlan və qız İttifaqın yüksək səviyyəli elmi müəssisələrində təhsil almaq imkanı yaradıldı. Bizim haqqımızda uzun sürən fasilədən sonra hörmətlə danışmağa başladılar. Respublika müasir tipli xəstəxanalar, poliklinikalar, elmi müəssisələr, mehmanxanalar, idman sarayları ilə əhatə olundu. Bunları unutmaqmı olar? Doğrudur, indi pambıqçılıq və üzümçülüyü istehza ilə yada salanlar var. Ancaq unutmaq olmaz ki, Heydər Əliyev cənabları bu təsərrüfat sahələrinin inkişafına diqqət yetirərkən daha uzaqgörən məqsədlər görürdü. Məsələ bundadır ki, respublikanın təbii şəraiti bu sahələrin inkişafına çəkilən xərclərin əvəzini tezliklə ödəyirdi. Əldə olunmuş əlavə vəsaitə isə respublika əhalisinə vacib olan digər sahələri inkişaf etdirmək, xüsusilə sosial sahəyə qayğını gücləndirmək mümkün olurdu. Bir şeyi unutmaq olmaz ki, o vaxt SSRİ-nin bir hissəsi olsaq da çox işlər bizdən asılı olmadan həll edilirdi. Heç də həmişə son söz bizdən asılı olmurdu. Əlbəttə indiki müstəqillik şəraitində bütün bunlar barədə mühakimə yürütmək asandır, onda isə vahid dövlətin tərkibində idik və hər şey bu dövlətin güclənməsinə yönəlmişdi.

Bizim üçün Moskvanın, Sov. İKP-nın ədalətinə ümid 1990-cı il yanvar hadisələri zamanı puç oldu. Yüzlərlə dinc, azərbaycanlının amansızcasına öldürülməsi marksizm-leninizm ideyalarına olan inamımızı bir dəfəlik dəf etdi. Bu qanlı aksiya Sov. İKP MK-nin baş katibi M.S.Qorbaçovun göstərişi ilə həyata keçirildi. Və biz bu hadisədən sonra yenidən düşünməli olduq, lazımi qərar qəbul etdik. Təbii ki. kim isə tez, kim isə gec bu qərara gəldi, amma əsas o idi ki, bu qərara gələ bildik. Və belə qərara gələnlərdən birincisi Heydər Əliyev oldu, çünki o ən yüksək pillədə idi, Sov. İKP MK Siyasi Bürosunun üzvü idi və bu hadisələrdən hamıdan çox sarsılmışdı. Bütün bunlardan sonra kimisə əqidəsinə görə mühakimə etməyə mənəvi haqqımız yoxdur. Faciə o olardı ki, dərk etməyəsən, amma Heydər Əliyev bunu dərk etdi və Sov. İKP-nı tərk edənlərin öncülü oldu. O özünə və xalqına inamını itirmədi. Ağır yanvar günlərində çoxları yeni vəzifə kürsüləri axtarışında olanda Heydər Əliyev faciənin sonrakı günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, özünün və övladlarının həyatını təhlükə altına qoyaraq xarici müxbirlərin iştirakı ilə bu aksiyanı həyata keçirənləri məhkum etdi [Аббасбейли, А & Аббасбейли, Э., с.51].

Yalnız Heydər Əliyev belə hərəkət edə bilərdi. O, Moskvada qalmaqdansa öz sadə xalqı arasında olub, faciəli günlərini onunla birgə yaşamağı üstün tutdu və heç bir təəssüf etmədən Moskvanı Naxçıvana dəyişdi [Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdırır. s.11].

Burada Qarabağ avantürası üzərində dayanmaq gərgindir. Bu avantüranı hazırlayan M.S.Qorbaçov və onun erməni əhatəsi qara niyyətlərini həyata keçirmək yolunda keçmiş Sov. İKP MP və SSRİ hökumətində əsas maneə kimi Heydər Əliyevi görürdülər. Və qorbaçovçular bu imkandan istifadə etdilər ki, bu maneəni aradan götürsünlər. Bundan başqa Heydər Əliyevə münasibətdə M.Qorbaçovun öz məqsədi var idi. Siyasi Büroda M.Qorbaçov Heydər Əliyevi özünə bir nömrəli rəqib hesab edirdi. Bu dövrdə Heydər Əliyev ölkədə böyük, hörmət qazanmışdı və xaricdə də nüfuzu var idi. Qarabağ avantürasını işə salanda M.Qorbaçov birinci Heydər Əliyevdən başladı. Heydər Əliyevdən "azad" olan Qorbaçovçu erməni lobbisi üçün yaşıl işıq yandırıldı. Bu faciədə rollar və baş icraçılar əvvəlcədən müəyyən edilmişdi.

Respublikanın o zamankı rəhbərləri də Heydər Əliyevə münasibətdə yeni mövqedən çıxış edirdilər. Amma bu dəfə tarix siyasətçilərdən müdrik çıxdı. Bu gün onlar haradadır? Heydər Əlivev harada? Heydər Əliyev əvvəllər olduğu kimi indidə öz həyatını xalqına həsr etmişdi. Cılız siyasətçilər xalqın yaddaşından silinir, amma böyük siyasi xadimlər xalqın yaddaşında daimi iz salırlar. Heydər Əliyev sonunculara aiddir.

Keçmiş SSRİ rəhbərliyində yüksək vəzifə tutan Heydər Əliyev başa düşürdü ki, ilk dəfə Azərbaycan oğlu belə yüksək pilləyə qalxıb və onun fəaliyyətinə görə xalqımız haqqında fikir söyləyəcəklər. Amma M.Qorbaçovun hiyləgərliyinin həddi hüdudu yox idi və ona görə Heydər Əliyev şərəflə istefaya getmək məcburiyyətində qaldı.

O, istefaya getdi, amma dostları onu unutmadılar. Sovet neft sənayesinin veteranı, həmyerlimiz, Stalin dövründə Qorbaçov dövrünədək 50 ildən çox yüksək vəzifələrdə işləmiş N.İ.Baybakov Heydər Əliyev haqqında deyirdi:

> *"Bu, görkəmli rəhbər qabiliyyətli adamdır. Harada olmasından asılı olmayaraq, o həmişə yaxşı işləmiş, şərəflə çalışmışdır. Bizim son rəhbərliyimizdə belə adamlar çox az idi".*

Bu barədə SSRİ Nazirlə Sovetinin keçmiş sədri N.İ.Rıjkov da danışmışdı. Moskva televiziyası müxbirinin "O illərdə Heydər Əliyev necə işləyirdi?" sualına o belə cavab vermişdi: *"Heydər Əliyev çox yaxşı işləyirdi. Amma Qorbaçovun Əliyevə münasibətdə fəaliyyəti başa düşülmürdü".* Onun haqqında bütün keçmiş dostları və iş yoldaşları belə yüksək fikirlər söyləyirlər.

Təəssüf ki, Moskvada hakimiyyətə təsadüfi gələnlər sırasına yerli manqurtlar, şərəfsizlər də qoşuldular. Son 10-12 ildə çiçəklənən Respublika tanınmaz hala gətirildi. Çox şey məhv edildi. Elə bil ki, kiminsə əli bilərəkdən milli tariximizdən tam bir mərhələni kəsib atmaq istəyirdi. Amma tarixi silmək mümkün deyil. Tarixə düşənlər orada həmişəlik qalır.

AXC-nin hakimiyyətə gəlməsi ilə Leninin məşhur «aşpaz dövləti idarə edəcək» kəlamı gerçəkləşdi. Tam bir il ərzində xalq üzərində eksperiment keçirildi. «Bəy»lər sübut etməyə çalışırdılar ki, Azərbaycan intellektsiz keçinə bilər. Bəli, AXC «qalib» gəldi, amma bu, zəkanın qələbəsi yox, zəka üzərində qələbə idi və nəticədə xalq faciə ilə üzləşdi, dilemma qarşısında qaldı: ya məhv olmalı, ya da dayanmalı, arxaya nəzər salıb fikirləşməli.

Son bir neçə il ərzində xalq öz təcrübəsində gördü və başa düşdü ki, onu Vəzirovun, Mütəllibovun simasında biveclər və AXC liderləri simasında "demokrat"lar necə idarə ediblər. Vəzirovun qabiliyyətsizliyi, Mütəllibovun özündən razılığı və zəifliyi AXC-nin hakimiyyətə gəlməsinə yol açdı. İlk öncə AXC liderləri millətin özünüdərk hisslərini oyadaraq yaranmış vəziyyəti onlara sərf edən istiqamətə yönəltdilər və uzun-uzadı vədlərdən yorulmuş, cəbhədəki məğlubiyyətlərdən bezmiş xalq başa düşdü ki, bu "bəy"lərdən fayda olmayacaq.

1992-ci il andiçmə mərasimindən başlayaraq son çıxışları da daxil olmaqla Əbülfəz Elçibəydən heç kim heç nə anlamadı ki, biz hara gedirik və nəyə sahib olacağıq. İlk vaxtlar oyunbazlıq onlara müyəssər olur, çünki əhalinin hələ ki, yeməyə çörəyi, geyməyə paltarı var idi. Ehtiyatlar qurtaran kimi

dəbdəbəli şüarlar da yığışdırıldı. İqtisadi möcüzə əvəzinə iqtisadi böhran, mənəvi dirçəliş əvəzinə fırıldaq, banditizm ayaq tutub yeriməyə başladı.

Cəbhəçilərin oyunları və təxribatları, öz yerində olmayan rəhbərlərin bacarıqsızlığı ölkəni fəlakət, sosial partlayış qarşısında qoydu. Əhalinin böyük bir hissəsi aclıq, yoxsulluq, səfalət həddində yaşayırdı. Əlbəttə, əgər AXC vaxtında bütün vətənpərvər və sağlam qüvvələr birləşsəydi, Heydər Əliyev kimi şəxsiyyətin siyasi və dövlət təcrübəsinə arxalansaydı, tamam başqa nəticələrə nail ola bilərdi. Bunu vaxtında etsəydilər, onda ölkə belə ağır vəziyyətə düşməzdi. Və xalq yeni nəticəyə gəldi. Hərc-mərclik, başsızlıq dövrü başa çatdı. Azərbaycan yeni mərhələyə- sivilizasiyalı idarəçilik, qanunçuluq və qayda-qanun mərhələsinə daxil oldu. Ölkə üçün belə bir şəraitdə, ölkənin müstəqilliyi və suverenliyi həll olunan zaman Heydər Əliyev potensialına arxalanmasaydıq, ölümə bərabər səhvə yol vermiş olardıq.

Heydər Əliyev Azərbaycan üçün çox gərgin bir zamanda böyük siyasətə qayıtdı. Naxçıvanda olarkən ürək ağrısı ilə ölkənin paytaxtında və rayonlarında baş verən hadisələri müşahidə edirdi. Anlaşılmaz vəziyyət, cəmiyyətdəki sarsıntılar, hərbi-siyasi böhran gündən-günə şiddətlənirdi və bütün bunlar ona çox pis təsir edirdi. Ölkənin bu ağır vəziyyətində xalq ümidini yalnız Heydər Əliyevə bağlamışdı. Məhz xalq Heydər Əliyevin ölkə rəhbərliyinə qayıtmasında əsas rolu oynadı.

**3.Heydər Əliyevinm hakimiyyətə qayıdışı və fəaliyyəti**

1993-cü il oktyabrın 10-da Respublika Sarayında Heydər Əliyevin prezident kimi rəsmi andiçmə mərasimi keçirildi.

Prezident narahatdı, amma zahirən həmişə olduğu kimi sakitdi. Sanki gözü qabağında bütün çətin həyatı keçirdi. Sağ əlini Azərbaycan Respublikasının Konstitusiyasına basıb Vətənə sədaqət andı içdi. Andiçməni qurtarıb müqəddəs Qurana əl basdı, diz çöküb dövlətimizin bayrağını öpdü. Bu, təntənəli mərasimin kulminasiya nöqtəsi idi. O anlarda Heydər Əliyevin həyəcanını milyonlarla həmvətəni yaşayırdı. Elə bir vəziyyət yaranmışdı ki, sanki bütün Azərbaycan xalqı vətənə sədaqət andı içirdi...

Özünün proqram çıxışında respublika qarşısında duran problemləri açıqladı və yaranmış vəziyyətdən çıxış yollarını göstərdi.

Prezident kimi özünün ilk çıxışının Vətənin azadlığı, gələcəyi naminə birliyə çağırmaqla yekunlaşdırdı. Beləcə Azərbaycan tarixində yeni səhifə açıldı.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında Vətənə sədaqət andından uzun illər keçib. İndi keçən dövr ərzində görülmüş işlər haqqında mühakimə yürütmək olar. Heydər Əliyev doğru olaraq müstəqil Azərbaycan dövlətinin memarı hesab edilir. Onun bilavasitə rəhbərliyi altında müstəqil Azərbaycan

Respublikasının ilk Konstitusiyası qəbul edildi. 1995-ci il noyabrın 12-si tariximizdə xüsusi yer tutacaqdır. Məhz həmin gün Azərbaycan xalqı referendum yolu ilə Əsas qanunun qəbul edilməsinə «hə» dedi.

Hərbi şəraitdə Konstitusiyanın referendum yolu ilə qəbulu faktı nadir və cəsarətli addım idi.

Azərbaycan Respublikası Konstitusiyasına səs verməklə Azərbaycan xalqı ilk növbədə və ilk dəfə müstəqil, suveren Azərbaycana səs verdi. Konstitusiyanın hazırlanması Heydər Əliyevin böyük əməyinin nəticəsidir. Hər bir maddədə, bölmədə onun ruhu, nəfəsi hiss olunur və fəxr edə bilərik ki, ilk dəfə olaraq özümüzün öz Konstitusiyamız var. Bu isə o deməkdir ki, bizim öz dövlətimiz var.

**4.Heydər Əliyev böyük nüfuzu ilə dünya birliyinin möhkəmlənməsində özünəməxsus rol oynadı**

Heydər Əliyevin prezident seçilməsi bütün dünyada alqışlandı. Dünya birliyinin aparıcı siyasi xadimləri Azərbaycan xalqının bu seçimində tək regionda deyil, bütün dünyada sabitlik amili görürlər. Onlar belə fikirləşirlər ki, Heydər Əliyev dünya səviyyəli siyasətçidir və o, öz nüfuzu ilə Qafqazda sülhün təminatçısı olacaq. Bu barədə özünün təbrik teleqramında Böyük Britaniya və Şimali İrlandiya krallığının keçmiş baş naziri C.Meycor yaxşı deyib: *«Heydər Əliyev kimi nüfuzlu siyasətçinin seçilməsi bütün regionda böyük əhəmiyyət kəsb edəcək».* Bu fikir Heydər Əliyevin Fransaya səfəri zamanı da səsləndi. Mərhum prezident F.Mitteran bu sözləri dəfələrlə təkrar etdi.

Heydər Əliyevin şəxsində Azərbaycan Respublikası beynəlxalq münasibətlər baxımından şimal-cənub, şərq-qərb qovşağında nizamlayıcı amil kimi çıxış edir. Başqa sözlə desək? Heydər Əliyev böyük nüfuz ilə dünya birliyinin möhkəmlənməsində özünəməxsus rol oynayır. Onun islamın iki müqəddəs şəhəri Məkkə və Mədinəyə, habelə Vatikana tarixi səfərləri dünya birliyinin, ümumiyyətlə, xristian və müsəlman dünyaları arasındakı münasibətlərin möhkəmlənməsinə xidmət etdi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan diplomatiyası müasir siyasi təfəkkürün formalaşmasında mühüm rol oynayır. Bu nöqteyi-nəzərdən diplomatiyamızın ATƏT-in Budapeşt və Lissabon sammitlərində, İslam Konfransı Təşkilatının Mərakeşdəki VII, Tehrandakı VIII zirvə toplantılarında fəal iştirakı, habelə digər beynəlxalq forumlarda əldə etdiyi nailiyyətlər diqqəti xüsusilə cəlb edir.

Müstəqil Azərbaycan prezidenti Heydər Əliyevin uzaqgörən, müdrik xarici və daxili siyasəti nəticəsində Qərb və Şərqlə, yaxın və uzaq ölkələrlə-ABŞ, Fransa, İtaliya, Rusiya, İngiltərə, Yaponiya, Çin, Türkiyə, İspaniya, Almaniya Federativ Respublikası, İran, Orta Asiya dövlətləri Qazaxıstan, Moldova və başqa ölkələrlə münasibətlər gündən-günə yaxşılaşdı [Niyazov.

s.81]. Bütün bunlar beynəlxalq münasibətlərin pozitiv istiqamətdə formalaşmasında müstəsna əhəmiyyət kəsb edən amillərdir. Möhtərəm Prezidentimizin xarici siyasətinin məhək daşını bütün dünya ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı hörmət bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü kimi ali prinsiplər təşkil edir.

Azərbaycan diplomatiyasının Lissabon sammitindəki uğurlarından danışarkən bir neçə mühüm cəhəti qeyd etmək vacibdir. Birincisi, bu milli müstəqilliyi əldə etdiyimiz andan Azərbaycan Respublikasının beynəlxalq aləmdə ilk diplomatik qələbələrdən biri idi. İlk dəfə idi ki, Avropanın 53 ölkəsi o cümlədən BMT-nın, TŞ-nın daimi üzvü olan 5 dövlətdən 4-ü Azərbaycan Respublikasının düzgün və ədalətli mövqeyini qəbul etdi. İkincisi, sammit Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün təklif etdiyi 3 prinsipi tamamilə dəstəklədi.

Üçüncüsü, ilk dəfə olaraq ATƏT-in bütün üzvləri (Ermənistan istisna olmaqla) Azərbaycanın mövqeyini dəstəkləyən sənəd qəbul etdilər.

Dördüncüsü, Lissabon sammitindən sonra ABŞ, İngiltərə, Fransa, AFR və başqa ölkələrin nümayəndələri Heydər Əliyevin müdrik və uzaqgörən mövqeyinə görə minnətdarlıqlarını bildirdilər. Sammitdən bir neçə il sonra Rusiyanın diplomatiya idarəsinin başçısı Y.Primakov Ermənistanın Xarici işlər naziri ilə görüşü zamanı bəyan etdi ki, Qarabağ istənilən idarə forması seçə bilər, amma suveren Azərbaycan Respublikasının tərkibində! Belə bəyanat çoxdan idi ki, Rusiya xarici işlər nazirinin dilindən səslənmirdi. Bunun ardınca Amerikadakı erməni icması ABŞ prezidenti B.Klintona Azərbaycanı müdafiə etməmək barədə müraciət etdi. Ermənistan prezidenti L.Ter-Petrosyan parlamentdə çıxış edərək bəyan etməyə məcbur oldu ki, Lissabon görüşündən sonra beynəlxalq aləmdə Ermənistana çətin olacaq.

Qeyd etdiklərimizdən belə bir sual ortaya çıxır: bu, Azərbaycan Respublikasının Lissabonda qələbəsidir, yoxsa məğlubiyyəti? Xaricdə-Ermənistanda, Avropada, Amerikada və Rusiyada qəbul etdilər ki, bu, Lissabon sammitində Azərbaycanın uğuru və qələbəsidir. Amma ölkəmizdə çap olunan bir çox qəzet və jurnallarda bəzi müxalifət nümayəndələri bunu başqa cür qiymətləndirirdilər. Maraqlıdır, bu kimə lazımdır?! Lissabondakı qələbə, bütün Azərbaycan xalqının qələbəsi idi, bu isə onlara sərf etmirdi. Çünki bu, tam qələbəyə doğru gedən ilk addım idi. Əsas isə ilk addımı atmaqdır. Biz hamımız siyasi mənsubiyyətimizdən asılı olmayaraq, bir xalqın övladları deyilikmi? Ədavət yox, xalqımızın vahid lideri Heydər Əliyevin ətrafında birləşmək lazım idi ki, qarıya çıxan çətinlikləri dəf edib, qələbə çala bilək. Tarix belə bir ağır dövrdə bizə dünya siyasətinin dahisi Heydər Əliyevi bəxş etmişdi və onun istedadından istifadə etməmək bağışlanmaz səhv olardı.

## 5.Nəticə

Zaman ən adil hakimdir. Lissabon sammitindən xeyli vaxt keçib. İndi onun bir sıra nəticələri haqqında fikir söyləmək olar. Başlıca nəticə budur ki, Minsk qrupunun üç həmsədri- ABŞ, Fransa, Rusiya dəqiq bəyan edirlər ki, onlar öz fəaliyyətində Lissabon sammitinin qərarlarını əsas tutacaqlar.

İndiki şəraitdə bu və ya digər siyasi qüvvə, təşkilat, partiya öz qarşısına qoyduğu hər hansı vəzifəni reallaşdırmaq üçün, belə bir şərt irəli sürülməlidir: bu vəzifə ölkənin bütövlüyünə, xalqın birliyinə xidmət etməlidir.

Müasir şəraitdə əsas məqsəd Azərbaycan Respublikasının müzəffər prezidenti İlham Əliyevin ətrafında birləşməkdir. Bu, bizim mənəvi, vicdani borcumuzdur və xalq qarşısında bu borcu vicdanla yerinə yetirməliyik. Bizim yolumuzda dirçəliş və büdrəmələr qələbə və məğlubiyyətlər hələ çox olacaq. Lakin əminik ki, bütün çətinlikləri dəf edəcəyik. Çünki önümüzdə gedən İlham Əliyevdir.

### ƏDƏBİYYAT

1. Аббасбейли, A. (2002). *Azərbaycan mənim ürəyimdir.* Bakı, s.8
2. (2007). *Azərbaycan. 1993-cü il. Anarxiyadan sabitliyə.* Bakı, s.27
3. Аббасбейли, A. (2002). *Azərbaycan mənim ürəyimdir.* Bakı, s.9
4. Аббасбейли, А & Аббасбейли, Э. (1997). *Гейдара Алиев и мировая политика.* Баку, с.51
5. (1994). *Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdırır.* Bakı. s.112
6. Niyazov X. (2004). *Fateh.* Bakı, s.81

## Штрихи политического портрета общенационального лидера азербайджанского народа Гейдара Алиева

**Агалар Аббасбейли***

**Абстракт.** В статье с целью предоставления штрихов политического портрета общенационального лидера азербайджанского народа Гейдара

* Доктор исторических наук, профессор
Заведующий кафедрой «Международных отношений» Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: magistr-2000@mail.ru
https://orcid.org/0000-0002-3286-7114

**Цитировать статью:** Аббасбейли, А. [2023]. Штрихи политического портрета общенационального лидера азербайджанского народа Гейдара Алиева. *Журнал «Metafizika»*, *6*(1), с.69-80.

***История статьи:***
*Статья поступила в редакцию: 30.12.2022*
*Отправлена на доработку: 27.01.2023*
*Принята для печати: 13.03.2023*

Алиева исследована роль и место этого великого гражданина в истории Азербайджана.

Основываясь на конкретные факты отражены великие заслуги выдающего деятеля при создании и развитии суверенного Азербайджана, а также роль его политического наследника, господина Ильхама Алиева в освобождении Карабаха от тридцатилетней армянской оккупации.

В заключении особенно отмечены выводы о заслугах Президента Азербайджанской Республики Ильхама Алиева, благодаря которому вернулись азербайджанскому народу не только Шуша и Карабах, но и победивший Азербайджан всем азербайджанцам.

**Ключевые слова**: Гейдар Алиев, Ильхам Алиев, лидер, политика, история

## Strokes of the political portrait of the national leader of the Azerbaijani people Heydar Aliyev

**Aghalar Abbasbayli***

**Abstract.** In the article, the role and place of the genius in the history of Azerbaijan was studied in order to present the political portraits of Heydar Aliyev, the national leader of the Azerbaijani people.

Based on concrete facts, the author shows the greatness and service of Heydar Aliyev, the national leader of the Azerbaijani people in the creation and development of sovereign Azerbaijan, and the role of Heydar Aliyev's political successor, Ilham Aliyev, in the liberation of Karabakh from the 30-year Armenian occupation.

I. Aliyev returned not only Shusha and Karabakh to the Azerbaijani people, but also Azerbaijan to the Azerbaijanis- the victorious Azerbaijan.

**Keywords:** Heydar Aliyev, Ilham Aliyev, leader, politics, history

### REFERENCES

**1.** Abbasbeyli, A. (2002). *Azerbaijan is my heart.* Baku, p.8
**2.** (2007). *Azerbaijan. 1993 year. From anarchy to stability.* Baku. p.27
**3.** Abbasbeyli, A. (2002). *Azerbaijan is my heart.* Baku, p.9

* Doctor of Historical Sciences, Professor
Head of the Department of International Relations, Baku State University; Baku, Azerbaijan
E-mail: magistr-2000@mail.ru
https://orcid.org/0000-0002-3286-7114

**To cite this article:** Abbasbayli, A. [2023]. Strokes of the political portrait of the national leader of the Azerbaijani people Heydar Aliyev. *“Metafizika” journal, 6*(1), pp.69-80.

***Article history:***
*Received: 30.12.2022*
*Accepted: 13.03.2023*

**4.** Abbasbeyli, A. & Abbasbeyli, E. (1997). *Heydara Aliyev and world politics.* Baku, p.51
**5.** (1994). *Heydar Aliyev introduces Azerbaijan to the world*. Baku, p.112
**6.** Niyazov, Kh. (2004). *Fateh*. Baku, p.81